TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____ E.M.Ağayev

5 avqust 2026-cı il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

RESPERO MİRTOL FORTE bağırsaqda həll olan yumşaq jelatin kapsul
RESPERO MYRTOL FORTE

Tərkibi

Təsiredici maddə: 1 kapsulda 300 mq evkalipt, şirin portağal, mərsin və limon efir yağlarının qarışığının distillyatı vardır.

Köməkçi maddələr: rafinəolunmuş raps yağı, jelatin, qliserin 85%, sorbitol məhlulu 70% (qeyri-kristallik), hipromelloza asetat suksinat, trietil sitrat, natrium laurilsulfat, talk, dekstrin, ammonium qlisirrizat.

Təsviri

Şəffaf, yumşaq təbii rəngli kapsullardır.

Farmakoterapevtik qrupu

Öskürək əleyhinə kombinasiyalar istisna olmaqla bəlğəmgətiricilər.
ATC kodu: R05C.

Farmakoloji xüsusiyyətləri

Farmakodinamikası

Respero Mirtol forte həm sekretolitik, həm də sekretomotor təsir göstərir. Qatı seliyi durulaşdırır, seliyin klirensini artırır və bəlğəmin xaric olmasını yüngülləşdirir. Heyvanlar üzərində aparılan tədqiqatlarda preparatın klinik göstərişlərə uyğun olaraq peroral tətbiqindən sonra seliyin sintezinin aktivləşməsi göstərilmişdir; bu onun sekretolitik vasitə kimi terapevtik istifadəsi üçün ilkin şərtdir. Sekretolitik təsirinə əlavə olaraq, heyvanlar üzərində aparılan və *in vitro* tədqiqatlarda preparat yüksək dozalarda antimikrob təsir göstərmişdir. Bundan əlavə, müvafiq modellərdə iltihab əleyhinə təsirlər müşahidə olunmuşdur. Ümumiyyətlə, bütün bu təsirlər Respero Mirtol forte kapsulalarının terapevtik istifadəsində rol oynayır.

Farmakokinetikası

Absorbsiyası

Respero Mirtol forte kapsullarının qəbulundan təxminən 1-3 saat sonra, 1,8 sineol, limonen və α-pinenin pik plazma səviyyələri müşahidə olunur. 1,8 sineolun AUC dəyərləri limonen və α-pinenin AUC dəyərlərindən 20 dəfə yüksəkdir. Üç əsas maddənin C_{max} və AUC dəyərləri şəxslər arası və fərdi olaraq geniş dəyişir.

Metabolizmi

Üç əsas maddə 1,8-sineol, limonen və α-pinen əsasən sonrakı qismən və ya tam qlükuronidləşmə ilə hidroksilləşir. Limonen əsasən dihidroperill turşusu, perill turşusu və limonen-1,2-diola çevrilir.

Xaric olması

Preparatın üç əsas maddəsi əsasən metabolit şəklində sidiklə xaric olunur. Bir hissəsi tənəffüs vasitəsi ilə xaric olunur.

İstifadəsinə göstərişlər

Preparat kəskin və xroniki bronxit və sinusitin müalicəsində istifadə olunur.

Sinusitin (məsələn, üz ağrısı, burunun tutulması) və bronxitin (məsələn, öskürək) əsas simptomlarını yaxşılaşdırır. Qatı seliyi durulaşdırır, klirensini artırır, bəlğəmin xaric olmasına kömək edir və iltihab əleyhinə təsir göstərir.

Əks göstərişlər
- Təsiredici maddəyə və ya bu preparatın tərkibində olan hər hansı bir maddəyə qarşı allergiya.
- Mədə-bağırsaq və öd yollarının iltihablı xəstəlikləri və ya ağır qaraciyər xəstəlikləri.
- 6 yaşdan kiçik uşaqlar.

Xüsusi göstərişlər və ehtiyat tədbirləri

Bu preparatı içlik vərəqədə göstərildiyi kimi, həkimin və ya əczaçının dediyi kimi qəbul edin. Preparatın istifadəsi ilə bağlı sual yarandıqda, həkim və ya əczaçı ilə məsləhətləşin.

Xəstəliyin simptomları keçmədikdə, təngnəfəslik və ya qızdırma artdıqda və ya tərkibində qan və ya irin olan bəlğəmli öskürək başlandıqda, dərhal həkimə müraciət edin.

Bronxial astma, göy öskürək və ya tənəffüs sisteminin aşkar həssaslığı ilə müşayiət olunan digər tənəffüs xəstəlikləri zamanı, bu preparat yalnız həkimin məsləhətindən sonra qəbul edilməlidir.

Köməkçi maddələr haqqında xüsusi məlumat

Preparatının tərkibində sorbitol (E 420) vardır. Nadir irsi fruktoza dözümsüzlüyü olan pasiyentlər bu preparatı qəbul etməməlidirlər.

Uşaqlar

Bu preparat 6 yaşdan kiçik uşaqlara istifadə edilməməlidir.

Digər dərman vasitələri ilə qarşılıqlı təsiri

Terapevtik dozalarda preparatın məlum olan qarşılıqlı təsiri yoxdur.

Hamiləlik və laktasiya dövründə istifadəsi

Əgər Siz hamiləsiniz və ya uşaq əmizdirirsiniz, hamilə ola biləcəyinizi güman edirsiniz və ya hamilə qalmağı planlaşdırırsınız, bu dərmanı qəbul etməzdən əvvəl həkim və ya əczaçı ilə məsləhətləşin.

Hamilələrdə preparatın qəbulu ilə bağlı təcrübə olmadığından, yalnız həkimin risk-fayda qiymətləndirilməsindən sonra istifadə olunmalıdır. Heyvan üzərində aparılan tədqiqatlar və insanlarda Respero Mirtol forte preparatının bir neçə on illik terapevtik təcrübəsi reproduktivlik toksikliyi göstərməmişdir.

Bu preparatın yağda həllolma xüsusiyyətlərinə görə ana südünə keçmə ehtimalı böyükdür. Preparat laktasiya dövründə yalnız həkim tərəfindən risk-fayda nisbəti qiymətləndirildikdən sonra qəbul olunmalıdır.

Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri

Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə mənfi təsiri məlum deyil.

İstifadə qaydası və dozası

Respero Mirtol forte, 6 yaşdan yuxarı uşaqlar, yeniyetmələr və böyüklər üçün nəzərdə tutulan qastro-rezistent yumşaq kapsuldur.

Başqa qaydada təyin olunmadıqda, aşağıdakı doza tövsiyə olunur:

6-12 yaş uşaqlar

Kəskin hallarda 1 kapsul gündə 1-3 dəfə, xroniki hallarda 1 kapsul gündə 1-2 dəfə təyin olunur.

12 yaşdan yuxarı yeniyetmələr və böyüklər

Kəskin hallarda 1 kapsul gündə 3-4 dəfə, xroniki hallarda 1 kapsul gündə 2-3 dəfə təyin olunur.

Respero Mirtol forte kapsulları soyuq maye ilə yeməkdən təxminən yarım saat əvvəl çeynəmədən qəbul olunmalıdır. Son doza yatmazdan əvvəl qəbul edilə bilər.

Bu preparat 6 yaşdan kiçik uşaqlara istifadə edilməməlidir.

Respero Mirtol forte ilə müalicənin müddəti simptomlardan asılıdır. Tənəffüs yollarının xroniki xəstəliyində uzunmüddətli müalicə mümkündür.

Respero Mirtol forte preparatının istifadəsi unudularsa

Unudulmuş dozanı əvəz etmək üçün ikiqat doza istifadə edilməməlidir.

Əlavə təsirləri
Bütün dərmanlar kimi, bu dərman da hamıda olmasa da əlavə təsirlərin yaranmasına səbəb ola bilər.
Bəzən (100 nəfərdən 1-ə qədər təsir edə bilər) mədə-bağırsaq pozğunluqları (məsələn, mədə ağrısı/epiqastral nahiyədə diskomfort) və dad dəyişikliyi baş verə bilər.
Nadir hallarda (1000 nəfərdən birinə təsir göstərə bilər) ürəkbulanma, qusma və ya ishal və hiperhəssaslıq reaksiyalarının (məsələn, dəri səpgisi, qaşınma, üz ödemi, nəfəs darlığı və ya qan dövranının pozulması) baş verdiyi bildirilir.
Çox nadir hallarda (10000 nəfərdən 1-ə qədər təsir göstərə bilər), mövcud olan böyrək və ya öd daşları hərəkətə gətirilə bilər.

Doza həddinin aşılması
Təsadüfən doza həddinin aşılması zamanı ürəkbulanma, qusma, qıcolmalar, ağır hallarda tənəffüsün pozulması, koma inkişaf edə bilər. Doza həddinin aşılması zamanı həkimə müraciət edin, o lazımı tədbirlərin aparılması barədə qərar qəbul edəcək. Yuxarıda sadalanan əlavə təsirlər daha ağır şəkildə baş verə bilər.

Buraxılış forması
10 kapsul PVX/PVDX/Alü blisterdə. 2 və ya 5 blister, içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

Saxlanma şəraiti
25°C-dən yüksək olmayan temperaturda, rütubətdən qorumaqla orijinal qablaşdırmada və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

Yararlılıq müddəti
3 il.
Son istifadə müddəti müvafiq ayın son gününə aiddir.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

Aptekdən buraxılma şərti
Reseptsiz buraxılır.

İstehsalçı
G. Pohl-Boskamp GmbH & Co. KG, Germany.
Kaddenbusch 25578 Dägeling, Germany.
Kieler Strasse 11, 25551 Hohenlockstedt, Germany.

Qeydiyyat vəsiqəsinin sahibi
G. Pohl-Boskamp GmbH & Co. KG, Germany.
Kieler Strasse 11, 25551 Hohenlockstedt, Germany.